Mərkəzi Seçki Komissiyasının növbəti iclası

Məzahir Pənahovun sədrliyi ilə 2025-ci il yanvarın 14-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.

Əvvəlcə Komissiyanın 8 yanvar 2025-ci il tarixli iclas protokolu təsdiq edilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən verilən məlumata görə, daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunması məsələsinə baxılıb. Mərkəzi Seçki Komissiyası 68 saylı Sabirabad - Şirvan, 72 saylı Cəlilabad kənd, 86 saylı Ağcabədi və 118 saylı Ağdam - Xocalı seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edilməsinə qərar verib.

İclasda daha sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə müəyyən olunmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər, media mənsublarının və maraqlı subyektin də iştirakı ilə Komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

İclasda, həmçinin qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş vəzifə və səlahiyyətlərə malik qurumlarla sıx əməkdaşlıq çərçivəsində intensiv şəkildə davam etdirilən və nəzərdə tutulan maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verilib və cari məsələlərə baxılıb.

Tacir SADIQOV,
"Respublika".